# Milli Məclisin yeni tərkibi xalqın iradəsini əks etdirir

***Azərbaycanda getdikcə dərinləşən islahatların anonsu hələ 2018-ci ildə keçirilən prezident seçkilərində seçicilərin mütləq əksəriyyətinin dəstəyi ilə qələbə qazanan Prezident İlham Əliyevin andiçmə mərasimindəki nitqində verilmişdi. O vaxtdan ölkəmiz yeni idarəetmə sistemi mərhələsinə qədəm qoymuş, təşəbbüskar, novator, müasir dünyagörüşlü və dövlət idarəçiliyində təcrübəsi olan gənclərə etimad göstərilmişdir. Həmin proses bu gün də davam etdirilir. İnqilabi xarakter daşıyan islahatlar cəmiyyətimizin bütün sahələrini əhatə edib. Ölkə Prezidentinin həyata keçirdiyi islahatlar xalqımız və nüfuzlu beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir və müdafiə olunur.***



***Bütövlükdə, seçki prosesi həm uğurla keçmişdir, həm də seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirmişdir. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqı bu seçkilərdən məmnun qalmışdır və seçkilərdən sonra müşahidə olunan hadisələr bunu bir daha göstərir.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Təbii ki, köklü və inqilabi dəyişikliklər parlamentdən də yan keçə bilməzdi. Geniş miqyas alan islahatların yüksək səviyyəli, peşəkar, dövlətçiliyimizə sədaqətli, prinsipial və fəal parlament bazasına söykənərək aparılması dövrün tələbi idi. Ekspertlər də etiraf edirdilər ki, bundan əvvəlki parlament dövrün tələblərinə cavab vermir, zamanla ayaqlaşa bilmirdi. Ona görə də yeni parlamentin formalaşması zərurəti yaranmışdı. Bütün bunların nəticəsi olaraq, 2020-ci il fevralın 9-da respublikamızda azad, demokratik və şəffaf şəraitdə seçkilər keçirildi və ölkə əhalisinin öz iradəsini sərbəst şəkildə ifadə etməsi, istədikləri namizədə səs verməsi üçün əlverişli şərait yaradıldı.

Bu, ölkədə aparılan genişmiqyaslı islahatlara xalqın dəstəyinin yeni, əyani nümunəsi oldu. Xalq son 16 ildə həyata keçirilən uğurlu siyasi kurs nəticəsində əldə olunan nailiyyətləri, iqtisadi inkişafı, insanların rifahının yaxşılaşdırılması sahəsində atılan addımları, ölkənin müdafiə qüdrətinin gücləndirilməsini, sabitlik və təhlükəsizliyin təmin olunmasını razılıqla qarşılayır, Prezident İlham Əliyevin ətrafında sıx birləşdiyini açıq şəkildə nümayiş etdirir. Parlamnet seçkiləri də bunu bir daha təsdiqlədi.

Bütün bunlar Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin qətiyyətlə dəstəklənməsinin bariz ifadəsi, islahatlar konsepsiyasının qanunverici hakimiyyət sahəsində də gerçəkləşdirilməsidir.

Azad, ədalətli və şəffaf seçkilər nəticəsində formalaşmış altıncı çağırış Milli Məclis artıq öz işinə başladı. Martın 10-da keçirilən ilk iclasda iştirak edən və nitq söyləyən Prezident İlham Əliyev yeni formalaşan parlament qarşısında qoyulan vəzifələrdən söhbət açdı. Altıncı çağırış Milli Məclisin öz işinə başlaması münasibətilə deputatları təbrik edən dövlətimizin başçısı onlara uğurlar arzuladı. "İslahatların dərinləşməsi parlamentdən yan keçə bilməzdi" – deyən ölkə başçısı yeni tərkibdə formalaşmış Milli Məclisin islahatlara təkan verəcəyinə əminliyini bildirdi. Bu seçkiləri ölkəmizin həyatında önəmli hadisə adlandıran Prezident İlham Əliyev seçkilərin fevral ayında keçirilməsinin əsas səbəbinin islahatları dərinləşdirmək, vaxt itirmədən yeni tərkibdə Milli Məclisin işini təşkil etmək olduğunu vurğuladı. Seçki prosesinin uğurla keçdiyini və bu dəfə seçkilərə çox böyük maraq göstərildiyini deputatlığa namizədlərin sayının çoxluğu ilə əlaqələndirən dövlət başçısı bunun əyani sübutu kimi bu seçkilərdə 1300-dən çox namizədin iştirak etdiyini diqqətə çatdıraraq dedi ki, namizədlər fəal iş apararaq, öz fikirlərini, baxışlarını, ideyalarını seçicilərə azad şəkildə çatdıra bilmişlər.

Bütün namizədlər üçün bərabər şəraitin yaradılması, heç bir ayrı-seçkiliyə yol verilməməsi, deputat mandatı uğrunda çoxlu sayda namizədin mübarizə aparması, əslində, seçkilərə xalq tərəfindən göstərilən etimadın təzahürüdür. Bütün bunlar və seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirməsinin təzahürüdür. Dövlət başçısı bildirdi ki, Azərbaycan xalqı bu seçkilərdən məmnun qalmışdır və seçkilərdən sonra müşahidə olunan hadisələr də bunu bir daha təsdiqlədi.

Seçkiləri müşahidə etmək üçün yerli və beynəlxalq müşahidəçilər, eyni zamanda, dünyanın aparıcı kütləvi informasiya vasitələrinin əməkdaşları üçün əlverişli şəraitin yaradılması dövlət başçısının siyasi iradəsinin nəticəsi idi. Prezident İlham Əliyev nitqində seçkiləri müşahidə etmək üçün nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin dəvət edildiyini bildirdi: "Biz seçkiləri müşahidə etmək üçün bir çox beynəlxalq təşkilatları, müşahidəçiləri dəvət etmişdik və onların mütləq əksəriyyəti seçkilərin həm hazırlıq dövrünü, həm kampaniya dövrünü, həm də seçkilər gününü çox müsbət qiymətləndirmişdir. Demək olar ki, müşahidəçilərin mütləq əksəriyyəti seçkiləri demokratiyanın inkişafında növbəti uğurlu addım kimi qiymətləndirmişlər və bəyan etmişlər ki, Azərbaycan xalqı azad şəkildə öz seçki hüququndan istifadə edib və seçkilərin nəticələri real mənzərəni əks etdirir. Bunu bəyan edən beynəlxalq müşahidəçilər, əlbəttə ki, reallığı əks etdirirlər."

Həmişə olduğu kimi, bu seçkilərdə də ölkəmizə qarşı qərəzli olan bəzi beynəlxalq qurumlar yerlərdəki xəyanətkar əlaltıları vasitəsilə seçki prosesini gözdən salmaq üçün min fitnə-fəsada əl atsalar da, bu dəfə də xəbis niyyətlərinə nail ola bilmədilər. Dövlət başçısı da bu məsələyə münasibət bildirərək dedi ki, Azərbaycanda seçki prosesinə həmişə ikili standartlar prizmasından yanaşan və qeyri-obyektivliklə fərqlənən ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu və onun təsiri altında olan bəzi qurumlar bu dəfə də hansısa qüsurları qabardıb, onları böyük hadisə kimi təqdim etməyə çalışmışdılar. "Heç bir seçki qüsursuz olmur", -- deyən ölkə rəhbəri bu seçkilərdə də nöqsanların, müəyyən pozuntuların qeydə alındığını bildirdi və bunun nəticəsi kimi, 4 seçki dairəsinin nəticələrinin ləğv edilməsini müsbət hal kimi dəyərləndirdi: "Bu qüsurların olmaması üçün Azərbaycan özü maraqlıdır. Seçkidən sonrakı proseslər bir daha onu göstərir ki, bizim əsas niyyətimiz ondan ibarət idi ki, Azərbaycan xalqı öz seçki hüququndan azad şəkildə istifadə etsin, bəyəndiyi namizədə səs versin, beləliklə, öz fikrini və öz siyasi iradəsini ifadə etsin. Bütövlükdə, biz buna nail olmuşuq və seçkilərdən sonra artıq müşahidə olunan mənzərə onu göstərir ki, Azərbaycan xalqı seçkilərin nəticələri ilə razılaşıb. Bizim üçün əsas məsələ bundan ibarətdir".

Budəfəki parlament seçkiləri siyasi partiyaların çoxluğu ilə də diqqəti cəlb edir. Qeydə alınanlardan 246 nəfərin namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülmüşdü. 20 siyasi partiyanın parlament seçkilərinə qatılması seçkilərə olan marağın nəticəsidir. Artıq altıncı çağırış Milli Məclis çoxpartiyalı parlament kimi formalaşıb. Dövlət başçısının tövsiyəsi əsasında Milli Məclisin və komitələrin rəhbərliyində siyasi partiyaların nümayəndələrinin təmsil olunması gələcəkdə siyasi sistemin təkmilləşdirilməsi işində mühüm əhəmiyyət kəsb edəcək. Bu vaxta qədər belə hal olmamışdır. İndiyə qədər Milli Məclisin və komitələrin rəhbərliyində müxalifət nümayəndələri təmsil olunmurdular. Bu dəfə isə hətta parlament sədrinin müavinlərindən biri müxalifət partiyasının təmsilçisidir. Dövlətimizin başçısı da siyasi sistemin möhkəmləndirilməsi, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac olduğunu diqqətə çatdırdı.

Ölkə Prezidenti, həm də Prezident Administrasiyası nümayəndələrinin siyasi partiyaların rəhbərləri ilə görüşdüyünü bildirdi və genişmiqyaslı islahatlar dövründə siyasi islahatların zəruriliyini diqqətə çatdırdı. Qeyd etdi ki, siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz: "Bir partiya – hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır və ilkin təəssürat müsbətdir. Bu təşəbbüs heç bir şərt qoyulmadan həyata keçirilir. Ancaq yenə də marginallaşmış və bütün dayaqlarını tam itirmiş dərnək tipli qruplaşma bu görüşdən imtina etdi. İmtina edib, indi özü bilər. Hər halda, uduzan biz olmayacağıq. Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq. Hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tələb olunmur. Hesab edirəm ki, bu praktikaya son qoyulmalıdır. Əgər biz, doğrudan da, istəyirik ki, Azərbaycanda çoxpartiyalı sistem inkişaf etsin, – biz bunu istəyirik və iqtidar partiyası kimi bunu təqdim edirik, – onda, əlbəttə, siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektri mövcud olmalıdır. Bu, hesab edirəm ki, Milli Məclisin gündəliyində duran məsələlərdən biri olacaqdır".

Dövlətimizin başçısı həyata keçirilən kadr islahatlarından söhbət açdı. Son müddət ərzində Prezident Adminisrtasiyasının və Nazirlər Kabinetinin, demək olar ki, tam yeni tərkibdə formalaşması, yeni şöbələrin yaradılması daha çevik və operativ fəaliyyətə şərait yaradıb. O cümlədən yerli icra hakimiyyəti orqanlarında aparılan kadr islahatları, xüsusilə, gənclərə böyük etimad göstərilməsi islahatların tərkib hissədir. Dövlətimizin başçısı bundan sonra da həmin istiqamətdə işlərin davam etdiriləcəyini və yeni tərkibdə formalaşmış Milli Məclisin bu islahatlara təkan verəcəyinə əminliyini bildirdi.

Deputatların qarşısında böyük vəzifələr durduğunu vurğulayan respublikamzın rəhbəri, ilk növbədə, bunun qanunvericilik sahəsində zəruriliyini yada saldı və bunu parlamentin əsas işinin qanunvericilik olması ilə əlaqələndirdi: "Mənim tövsiyəm ondan ibarətdir ki, nəinki kəmiyyətə, daha çox keyfiyyətə fikir verilsin. Çünki mövcud olan qanunların təkmilləşdirilməsinə baxmaq, onları təftiş etmək lazımdır. İcra strukturlarına mənim tərəfimdən göstəriş verilmişdir ki, qəbul edilmiş qanunların icrası nə yerdədir. Biz bir çox gözəl qanunlar qəbul edirik, eyni zamanda, Prezident tərəfindən bir çox önəmli sərəncamlar imzalanır, ancaq onların icrasına nəzarət lazımi səviyyədə deyil. Ona görə Prezident Administrasiyasında xüsusi şöbə yaradıldı. Hesab edirəm ki, Milli Məclis, deputatlar da bu işlərlə məşğul olmalıdırlar. Baxın, görün, qəbul olunmuş qanunlar icra edilir, yoxsa edilmir, bu qanunları pozurlar, yoxsa pozmurlar. Əgər belə hallar aşkarlanarsa, onda, əlbəttə ki, ciddi cəza tədbirləri görülməlidir".

Yeni çağırış Milli Məclisin qarşısına qoyulan əsas vəzifələrdən biri də parlamentlərarası beynəlxalq əlaqələri daha da möhkəmləndirməkdən, fəallığı artırmaqdan ibarətdir. Bu fəaliyyətdə Azərbaycan həqiqətlərinin, xüsusilə, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi faktların beynəlxalq aləmə çatdırılması əsas faktor olmalıdır. Ölkə Prezidenti bildirdi ki, bu məsələdə tarixi həqiqət bizim tərəfimizdədir. Bunu beynəlxalq hüququn norma və prinsipləri də təsdiqləyir. Ermənistan tərəfi nə qədər yalan və saxta məlumatlar yaysa da, heç nəyə nail ola bilmir.

Dövlətimizin başçısı yeni formalaşan Milli Məclis qarşısında beynəlxalq təşkilatlarda tarixi həqiqətlərin ortaya qoyulmasını prioritet vəzifə kimi tapşırdı və bundan sonra da ölkəmizin müstəqil siyasət yeridəcəyini, inkişaf yolu ilə gedəcəyini, bu işdə parlamentin də fəallıq göstərəcəyinə əminliyini bildirdi.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***